

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 141 (21.293)

22 iyul 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli mətbuatın yaradılmasının 140 illiyi münasibətilə Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşüb.

Azərbaycanın milli maraqlarının qorunmasındakı qətiyyətli mövqeyinə görə dövlətimizin başçısına Mətbuat Şurasının xüsusi mükafatı təqdim olunub.

Prezident İlham Əliyev milli mətbuatın yaranmasının 140 illiyi münasibətilə jurnalistləri və xalqımızı təbrik edib, bayram ərəfəsində bir çox jurnalistlərin orden, medal və fəxri adlarla təltif olunduğunu deyib.

Sonra Prezident İlham Əliyev milli mətbuatın 140 illiyi münasibətilə imzaladığı Sərəncama əsasən Mətbuat Şurasının fəxri ad alan üzvlərinə mükafatları təqdim edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 15 iyul tarixli sərəncamları ilə Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafındakı xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələrinin işçiləri də vardır.

**"Əməkdar jurnalist"**

Hüseynova Qahirə Müslüm qızı

**"Əməkdar mədəniyyət işçisi"**

Ələsgərov Məmmədrza Hüseyn oğlu

**"Tərəqqi" medalı ilə**

Əzimova Sara Nurəddin qızı
Hüseynova Lalə Qurbanəli qızı
Məmmədov Elçin Nadir oğlu
Məmmədov Elxan Qadir oğlu
Məmmədov Muxtar Məmməd oğlu
Nəbiyeva Şəhla Valeh qızı
Qənbərov Qafar Tahar oğlu
Tahirli Sahil Abdulla oğlu

## "Əməkdar jurnalist" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında mətbuat sahəsində səmərəli fəaliyyətlərinə görə:

Babayeva Təhminə Adil qızına
İsmayılov Babək Ələkbər oğluna
Sultanova Mehriban Paşa qızına – **"Əməkdar jurnalist"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 iyul 2015-ci il*

## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında mətbuat sahəsində səmərəli fəaliyyətlərinə görə:

İsmayılov Sərxan Yaqub oğlu
Məmmədov Ziya Məmməd oğlu
Mirzəyeva Səkinə Abdulla qızı
Səfərov Məhəmməd Pənah oğlu
Talıbova Səadət Mənsim qızı – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 iyul 2015-ci il*

# Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyası keçirilmişdir





İyulun 21-də dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyası keçirilmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

1. 2015-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin icrasının təsdiq edilməsi
3. "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi

2015-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları ilə əlaqədar çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov demişdir ki, muxtar respublikada hesabat dövrü ərzində təhsil, mədəniyyət, səhiyyə, rabitə, energetika və digər sahələr də daxil olmaqla müasir tələblərə cavab verən yeni obyektlər istifadəyə verilmiş, yollar salınmış, körpülər tikilmiş, istehsal və xidmət sahələrinin yaradılması istiqamətində işlər davam etdirilmişdir. Cari ilin 6 ayı ərzində muxtar respublikada tikinti-quraşdırma işlərinə sərf olunmuş investisiyaların həcmi 2,7 faiz artmış, tikinti sahəsində 11 min nəfərə yaxın işçi çalışmışdır. Bu dövrdə muxtar respublikada 189 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov çıxış edərək demişdir ki, 2015-ci ilin ötən dövründə 439 sənaye müəssisəsi fəaliyyət göstərmişdir. Bunun nəticəsidir ki, 2015-ci ilin birinci yarımilində 491 milyon 381 min manatlıq və ya 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çox sənaye məhsulu istehsal olunmuşdur. Cari ilin müvafiq dövründə kənd təsərrüfatı məhsulları istehsalı və emal sənayesini əhatə etməklə 28 istehsal və xidmət sahəsi istifadəyə verilmiş, muxtar respublikada 336 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir. 2015-ci ildə sahibkarlığın inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindən biri olmuş, ümumi daxili məhsulda özəl bölmənin payı 87 faizi ötmüşdür. Əhalinin ərzaq məhsullarına olan tələbatının ilboyu ödənilməsinin təmin edilməsi məqsədilə yerli investisiyalar əsasında soyuducu anbarların sayı 20-yə, tutumu 12 min 250 tona, tərəvəz məhsullarının yetişdirilməsi üçün istixana komplekslərinin ümumi sahəsi 100 min kvadratmetrə, uzunmüddətli taxıl anbarlarının tutumu 27 min tona, qısamüddətli taxıl anbarlarının tutumu 43 min 380 tona, taxıl emalı müəssisələrinin sayı 17-yə, ətlik və yumurtalıq istiqamətində quşçuluq təsərrüfatlarının sayı 64-ə çatdırılmışdır.

Sessiyada çıxış edən Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov bildirmişdir ki, 2015-ci ilin birinci yarısında məşğulluq xidməti orqanlarına müraciət edən 1391 nəfər, Naxçıvan şəhəri və rayonlarda keçirilmiş əmək yarmarkalarında isə 332 nəfər işlə təmin olunmuşdur. Cari ilin altı ayı ərzində əmək bazarının tələbinə uyğun olaraq Naxçıvan Regional Peşə-Tədris Mərkəzində təşkil edilmiş peşə kurslarına, ümumilikdə, 195 nəfər cəlb edilmişdir. Muxtar respublikada həyata keçirilən sosial siyasət əhalinin məşğulluq imkanlarının artması və aztəminatlı ailələrin sayının azalması ilə nəticələnmişdir. 2015-ci ilin birinci yarısında aztəminatlı ailələrə ödənilən ünvanlı dövlət sosial yardımına 1 milyon 692 min manat sərf olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 32 min manat azdır. 2014-2015-ci tədris ilində məhdud fiziki imkanlı 40 uşaq məktəbəqədər təhsil müəssisəsinə, 78 uşaq ümumtəhsil müəssisələrinin birinci siniflərinə, 179 uşaq isə məktəbdənkənar müəssisələrin dərnəklərinə, musiqi məktəblərinə və idmanın müxtəlif növləri üzrə qruplara cəlb edilmişdir. Bu dövr ərzində eşitmə qabiliyyəti məhdud 7 uşaq üçün distant dərslərin tədrisi davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Kamal Cəfərov qeyd etmişdir ki, cari ilin ötən dövrü ərzində ümumi inkişafı xarakterizə edən ümumi daxili məhsul istehsalının həcmi bir il öncəyə nisbətdə 5 faiz artaraq 1 milyard 86 milyon 578 min manat təşkil etmişdir. Etibarlı ərzaq təminatı sisteminin qurulması daxili bazarda tələbatın ödənilməsi ilə yanaşı, ixrac potensialını da gücləndirməkdədir. Belə ki, ötən dövr ərzində muxtar respublikadan kənara 38 milyon ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları, xüsusilə də meyvə və tərəvəz məhsulları ixrac olunmuşdur. Yanvar-iyun aylarında 1830 yeni iş yeri açılmışdır ki, bu iş yerlərinin də 98 faizi daimi iş yerləridir. Muxtar respublika iqtisadiyyatının inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə də şərait yaratmış, cari ilin yanvar-iyun aylarında muxtar respublikada 208 milyon 291 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 5 faiz artaraq 184 milyon 420 min Amerika Birləşmiş Ştatları dollarını ötmüş, idxalın həcmi isə 58,4 faiz azalaraq 23 milyon 871 min Amerika Birləşmiş Ştatları dolları həcmində olmuşdur.

Ardı 2-ci səhifədə

Xarici ticarət üzrə 160 milyon 550 min Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə müsbət saldo yaranmışdır. Bundan başqa, 1 iyun 2015-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 4314 nəfər artaraq 441 min 381 nəfərə çatmışdır. Əhali artımında müsbət miqrasiya ilə yanaşı, doğulanların sayı əsas rol oynamış və bir il öncəyə nisbətdə bu göstərici 8 faiz artmışdır.

Sessiyanın gündəliyinə daxil edilmiş ikinci məsələ ilə əlaqədar çıxış edən Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Xalid İsgəndərov Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin icrası haqqında məlumat verərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə 2014-cü ildə bütün mənbələr hesabına 66 milyon 800 min manat proqnoza qarşı 74 milyon 84 min 717 manat vəsait daxil olmuş, tapşırıq 110,9 faiz icra olunmuşdur. Bu, nəzərdə tutulan məbləğdən 7 milyon 284 min 717 manat, 2013-cü illə müqayisədə isə 14,2 faiz, yaxud 9 milyon 227 min 94 manat çoxdur. 2014-cü ildə büdcə daxilolmalarının 83,7 faizi Vergilər Nazirliyi, 13,6 faizi Dövlət Gömrük Komitəsi tərəfindən, 2,6 faizi büdcə təşkilatlarının ödənişli xidmətlərindən təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 2014-cü ildə 350 milyon 500 min manat təyinata qarşı 349 milyon 702 min 322 manat və ya 99,8 faiz icra olunmuşdur. Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə 2015-ci ilin birinci yarımilində bütün mənbələr hesabına 31 milyon 733 min manat proqnoza qarşı 35 milyon 709 min 290 manat və ya 112,5 faiz icra olunmaqla 3 milyon 976 min 290 manat artıq vəsait daxil olmuşdur. Bu dövrdə dövlət büdcəsinin xərcləri 214 milyon 567 min 763 manat dürüst təyinata qarşı 176 milyon 563 min 457 manat və ya 82,3 faiz olmuşdur.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul olunmuşdur.

Gündəlikdə duran üçüncü məsələnin müzakirəsi zamanı qeyd olunmuşdur ki, "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 3 aprel tarixli Qanunu ilə seçki komissiyası üzvünün səlahiyyətinə xitam verilməsi qaydasında dəyişiklik edilmişdir. "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununu bu dəyişikliyə uyğunlaşdırmaq məqsədilə Qanun layihəsi hazırlanmışdır.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanunu qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sessiyada çıxış etmişdir. Bununla da dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyası öz işini başa çatdırmışdır.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Ulu öndər Heydər Əliyev yolu ilə gedən Azərbaycanda hər il sosial-iqisadi inkişaf sahəsində mühüm nailiyyətlər qazanılır. Bu, öz əksini əhalinin yaxşılaşan həyat səviyyəsində, sabitlik və əmin-amanlıqda tapır. Əldə olunan sabitliyin nəticəsidir ki, bu gün Azərbaycan dünya əhəmiyyətli tədbirlərə ev sahibliyi edir. Bu yaxınlarda ilk Avropa oyunlarının yüksək səviyyədə təşkili və tam sabitlik şəraitində keçirilməsi Azərbaycanın iqtisadi qüdrətinin əyani ifadəsi idi. Ölkəmizin ilbəil artan iqtisadi gücünü şərtləndirən əsas amillərdən biri də regionların tarazlı inkişafının təmin edilməsidir.

Azərbaycanın digər iqtisadi rayonları kimi Naxçıvan Muxtar Respublikası da özünün quruculuq və inkişaf dövrünü yaşayır. Hazırda sosial-iqtisadi həyatın elə bir sahəsi yoxdur ki, orada quruculuq tədbirləri getməsin.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına vaxtında əməl olunması, iqtisadi və sosial sahədə qarşıya qoyulan vəzifə və tapşırıqların yerinə yetirilməsi yeni istehsal sahələrinin və iş yerlərinin açılmasına, əhali məşğulluğunun yüksəldilməsinə, müasir infrastrukturun yaradılmasına səbəb olmuşdur. Cari ilin ilk yarısında sənaye, kənd təsərrüfatı, tikinti kimi maddi istehsal sahələrində, eləcə də xidmət sektorunda qeydə alınan göstəricilər deməyə əsas verir ki, muxtar respublikamız 2015-ci ili də yüksək nəticələrlə başa vuracaqdır.

Lakin bunlar son hədd deyil. Bizim əsas məqsədimiz iqtisadi və sosial sahədə qazanılan uğurların davamlılığını təmin etmək, əhalinin rifah halını daha da yaxşılaşdırmaqdır. Bu vəzifələrin icrası üçün isə aid dövlət orqanları fəaliyyətlərini daha da gücləndirməlidirlər.

İqtisadiyyat və Sənaye Nazirliyi istehlak bazarında qiymətlər üzərində nəzarət funksiyasını gücləndirməli, Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyətləri ilə birlikdə kənd təsərrüfatı və yerli istehsal məhsullarının satış yarmarkalarının təşkilini bundan sonra da davam etdirməlidir. Yeni müəssisələr yaradılarkən daxili bazarın tələbatı, tarixən formalaşmış təsərrüfatçılıq ənənələri nəzərə alınmalı, sahibkarlara güzəştli şərtlərlə dövlət maliyyə dəstəyinin göstərilməsi davam etdirilməlidir.

Aqrar sektorun inkişafını və modernləşdirilməsini sürətləndirmək, kənd təsərrüfatı məhsullarının ixrac imkanlarını daha da artırmaq məqsədilə 2015-ci il ölkəmizdə, eləcə də muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan edilmişdir.

Bu gün torpaqlardan səmərəli istifadə qarşıda duran əsas vəzifələrdəndir. Əkinəyararlı torpaq sahələrinin məhdudluğu nəzərə alınaraq əkinçiliyin inkişafında intensiv amillərə üstünlük verilməlidir. Kənd təsərrüfatına yararlı torpaqlardan digər məqsədlər üçün istifadənin qarşısı alınmalı, onların əkin dövriyyəsinə cəlb olunması istiqamətində tədbirlər görülməlidir. Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları bitkiçilik məhsullarının əkinində ərazinin relyef və iqlim xüsusiyyətlərinin nəzərə alınması, növbəli əkin sisteminin tətbiqi ilə bağlı mütəmadi olaraq tədbirlər görməlidirlər.

Kənd təsərrüfatında innovasiyaların tətbiqi təşviq olunmalı, yeni texnologiyaların, müasir əkin və suvarma metodlarının, qabaqcıl təcrübənin tətbiqinə diqqət artırılmalıdır. Düzgün seçilməyən əkin və suvarma metodları torpaqların şoranlaşmasına və eroziyaya uğramasına səbəb olur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi ilə birlikdə muxtar respublikada şoranlaşmış və eroziyaya uğramış torpaqların mütəmadi monitorinqini aparmalı, şoranlaşmış torpaqların yenidən əkin dövriyyəsinə qaytarılmasını təmin etməlidir.

Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsinin əsas yollarından biri də ayrı-ayrı ailə təsərrüfatlarının birləşərək iri təsərrüfatlar yaratmasıdır. Bu, məhsul istehsalına çəkilən xərclərin azalmasına, eləcə də ixrac potensialının artmasına öz təsirini göstərə bilər. Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları yerlərdə iri fermer təsərrüfatlarının yaradılması məqsədilə maarifləndirici tədbirlər aparmalıdırlar.

Əkilmiş sahələrdən bol məhsul götürülməsində suvarmanın düzgün təşkili mühüm əhəmiyyətə malikdir. Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi, yerli icra hakimiyyətləri su itkisinin qarşısını almaq üçün su bölgüsünün səmərəli təşkil olunmasını təmin etməli, kanal və arxların vaxtında təmizlənməsi və bərpası işlərinə diqqəti artırmalıdırlar.

Kənd təsərrüfatının inkişafına maliyyə dəstəyi gücləndirilməli, muxtar respublikada fəaliyyət göstərən bank və kredit təşkilatları, həmçinin Sahibkarlığa Kömək Fondu kənd təsərrüfatına yönəldilən kreditlərin həcmini artırmalı və əhatə dairəsini genişləndirməlidirlər.

Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Baş Sığorta Agentliyi kənd təsərrüfatında sığorta işinin təşkilinə diqqəti artırmalı, istehsalçıları mümkün sığorta hadisələri barədə maarifləndirməlidirlər.

İqtisadiyyat və Sənaye Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə tələbatdan artıq istehsal olunan kənd təsərrüfatı məhsullarının ixracı üçün sahibkarlara lazımi dəstək verməlidirlər. Eyni zamanda yerli icra hakimiyyəti orqanları ilə birlikdə mövsüm ərzində məhsulun soyuducu anbarlar tərəfindən tədarükü də təmin olunmalıdır. Dövlət Gömrük Komitəsi daxili bazarın qorunması məqsədilə kənd təsərrüfatı məhsullarının idxalının mövsümə uyğun tənzimlənməsini davam etdirməlidir.

Ərzaq təhlükəsizliyinin təmin olunmasında heyvandarlıq, quşçuluq və arıçılığın inkişafına da diqqət artırılmalıdır. Kənd Təsərrüfatı Nazirliyi Dövlət Baytarlıq Xidməti ilə birlikdə qeyd edilən sahələrdə məhsuldarlığın yüksəldilməsi məqsədilə xəstəliklərə qarşı mübarizə tədbirlərinin vaxtında aparılmasına nəzarət etməlidirlər.

Muxtar respublikada əsas kapitala yönəldilən investisiyaların həcminin ildənilə artması tikinti-quruculuq işlərinin miqyasının və əhatə dairəsinin də genişlənməsinə səbəb olmuşdur. Tikinti işlərinin yüksək keyfiyyətlə aparılması məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Fövqəladə Hallar Nazirliyi ərazinin relyefinə uyğun konstruksiyaların seçilməsinə, tikinti layihələrinin ciddi şəkildə təhlil olunmasına və keyfiyyətli materiallardan istifadəyə nəzarəti artırmalıdır.

Rabitə və Yeni Texnologiyalar Nazirliyi rabitə və poçt xidmətinin, genişzolaqlı və simsiz internetin əhatə dairəsini genişləndirməlidir. "Evədək optika" və "Elektron hökumət" layihələrinin icrası üçün aid təşkilatlarla birlikdə bütün səylər səfərbər olunmalıdır.

Muxtar respublikamızda enerji təhlükəsizliyinin təmin olunması üçün məqsədyönlü tədbirlər görülür. Dövlət Energetika Agentliyi, "Naxçıvanqaz" İstehsalat Birliyi və yerli icra hakimiyyəti orqanları qaz və elektrik enerjisi itkilərinə səbəb olan nöqsanları aradan qaldırmalı, müasir tipli elektrik və qaz sayğaclarının quraşdırılması davam etdirilməlidir.

Təhsil Nazirliyi tədrisin yeni metodlar və təlimin texniki vasitələrdən istifadə əsasında qurulmasına nail olmalı, məktəblərin pedaqoji kadrlara olan tələbatının müəyyənləşdirilməsi və ixtisaslı müəllimlərlə təmin edilməsi üçün zəruri tədbirlər görməli, distant dərslərin və muzeylərdə açıq dərslərin keçirilməsini davam etdirməlidir.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi elmi nailiyyətlərin təcrübəyə tətbiqini gücləndirməli, "Naxçıvan tarixi" çoxcildliyinin üçüncü cildinin nəşrə hazırlanmasını başa çatdırmalı, aparılan elmi tədqiqatların aktuallığına nail olmalıdır.

Ali təhsil müəssisələri müasir tədris texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətinin yüksəldilməsinə və məzmunun yeniləşdirilməsinə nail olmalıdırlar. Ali məktəblərin beynəlxalq elmi əlaqələri genişləndirilməlidir. Əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadrların hazırlanması diqqətdə saxlanmalı, tədris proqramlarında daim yeniləşmələr aparılmalıdır. Perspektiv inkişaf və kadr hazırlığı nəzərə alınaraq aidiyyəti dövlət orqanları ali təhsil müəssisələrinin müvafiq ixtisaslarını himayəyə götürməlidirlər.

Səhiyyə Nazirliyi səhiyyə müəssisələrində tibbi avadanlıqlardan səmərəli istifadəni təmin etməlidir. Əczaxanaların fəaliyyətinə, satılan dərman preparatlarının keyfiyyətinə və qiymətinə nəzarət olmalıdır. Səhiyyə sistemində əsas vəzifələrdən biri də tibbi heyətin peşəkarlığının artırılmasıdır.

Mədəniyyət və Turizm Nazirliyi tabeliyində olan müəssisə və təşkilatların fəaliyyətini müasir tələblər səviyyəsində qurmalı, xalq teatrlarının, folklor qruplarının işi canlandırılmalı, muxtar respublikanın turizm potensialından səmərəli istifadə edilməlidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əmək bazarında müxtəlif peşələr üzrə kadrlara olan tələbatı müəyyənləşdirməli, peşə hazırlığını əmək bazarının tələblərinə uyğunlaşdırmalı, şəhər və rayonlarda əmək yarmarkalarının keçirilməsini davam etdirməlidir.

Dövlət Sosial Müdafiə Fondu əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınmasını və sosial sığorta şəhadətnamələri ilə təmin olunmasını diqqətdə saxlamalıdır.

Hüquq-mühafizə orqanları ictimai asayişin və sabitliyin qorunması üçün tədbirləri gücləndirməli, profilaktika işi ardıcıl olaraq həyata keçirilməli, vətəndaşların müraciətlərinə vaxtında baxılmalıdır.

Yerli icra hakimiyyəti orqanları abadlıq işlərinin keyfiyyətinə, istifadəyə verilmiş inzibati və sosial obyektlərin qorunub saxlanılmasına nəzarəti gücləndirməli, məişət tullantılarının vaxtında toplanmasını təşkil etməli, müəssisə və təşkilatlarda nizam-intizam gücləndirilməli, qanunsuz tikililərin qarşısı alınmalı, salınmış yaşıllıq və gülkarlıqlar qorunmalıdır. Vətəndaşların müraciətləri yerində araşdırılmalıdır.

Muxtar respublikanın kütləvi informasiya vasitələrində maarifçilik xətti gücləndirilməli, ədəbi dil normaları qorunmalı, tarix və vətənpərvərlik mövzularında materialların hazırlanmasına diqqət artırılmalıdır. Mətbuat işçiləri muxtar respublikanın inkişafında yaxından iştirak etməlidirlər.

Muxtar respublikamızda əldə olunmuş inkişaf göstəriciləri bundan sonrakı dövrdə də fəaliyyət üçün ciddi əsaslar yaradır. "Kənd təsərrüfatı ili"nin uğurla başa vurulması üçün bütün imkanlar səfərbər olunmalıdır.

Biz bugünkü işimizlə, fəaliyyətimizlə müstəqil ölkəmizin gələcəyinə öz töhfəmizi veririk. Azərbaycanın gələcək inkişafının təməlinin bu gündən qoyulduğunu bildirən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"Azərbaycan güclü ölkədir. Bizim yolumuz ədalət yoludur. Yolumuz haqq yoludur, inkişaf yoludur, tərəqqi yoludur. Biz bu yolla uğurla gedirik və gedəcəyik".***

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin icrası haqqında Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin icrası gəlirlər üzrə 74 084 717 manat, xərclər üzrə 349 702 322 manat məbləğində olmaqla təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 iyul 2015-ci il*

## "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun 26.4.1-ci maddəsində "vətəndaşlığını itirdikdə" sözləri "vətəndaşlığına xitam verildikdə" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 iyul 2015-ci il*

***1990-cı ilin 22 iyul günü müasir Azərbaycanın varlığına, dünya dövlətləri içərisində özünü təsdiq etməsinə səbəb olmuş günlərdəndir. Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin 1990-cı il iyulun 22-də Naxçıvana gəlişi tarixi zərurətdən yaranmışdır. Böyük şəxsiyyət üçün Vətənin dar günündə xalqının yanına qayıtmaq, onunla bir yerdə olmaq çox vacib və əhəmiyyətli idi. Ancaq uzun ayrılıqdan sonra xalqı ilə bir olmaq üçün Vətənə qayıdan ulu öndərə Bakıda – vaxtilə öz əli ilə qurub-yaratdığı şəhərdə yaşamağa icazə verilmədi. Nə qədər acı olsa da, 14 il ölkəsinin inkişafı üçün böyük zəhmət verdiyi bu şəhər Ona qollarını aça bilmədi. Əvəzində bu missiyanı qədim Naxçıvan yerinə yetirdi.***

# 22 iyul: tarixin dönüş məqamı

Həmin dövrdə Naxçıvan da özünün çox ağır günlərini yaşayırdı. Blokada şəraitində iqtisadi və siyasi böhran dərinləşmiş, sərhədyanı yaşayış məntəqələri erməni yaraqlılarının hücumuna məruz qalmışdı. Lakin dahi şəxsiyyətin gəlişi naxçıvanlılara böyük ümid və sevinc bəxş etmişdi. Ulu öndərlə görüşə gələnlər Ona dərin ehtiramlarını bildirirdilər. Naxçıvan şəhərinin mərkəzinə 80 min nəfərdən çox adamın toplaşması əsl izdihama səbəb olmuşdu. Bu izdiham xalq ilə rəhbərin görüşünün, birliyinin bariz nümunəsi idi. Sonralar ulu öndər Heydər Əliyev bu barədə demişdir: ***"1990-cı ilin yayı idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov isə ümummilli lider Heydər Əliyevin Naxçıvana qayıdışını belə xarakterizə etmişdir: ***"Ölkəmizin taleyinin hərraca qoyulduğu, fəlakətə sürükləndiyi bir vaxtda səsini qaldıran, Azərbaycan həqiqətlərini bütün dünyaya çatdıran Heydər Əliyev və xalq amili bir daha fəal siyasi müstəvidə birləşdi. Xalqımızın böyük oğlunun qayıdışı Azərbaycan adlı parçalanmış, qan içində olan, 20 Yanvar faciəsinin məhrumiyyətindən özünə gəlməyə macal tapmayan, erməni yaraqlılarının hərbi müdaxiləsi, daxildə isə satqın rəhbərlərin xəyanəti ilə üzləşən yarımcan bədənə mənəvi ruh, bütövlük və tamlıq gətirdi".***

Ulu öndər Heydər Əliyev Naxçıvana qayıtdıqdan çox qısa bir müddət sonra Nehrəm seçki dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli seçki dairəsindən isə Naxçıvan parlamentinə deputat seçilmişdir. 1990-cı ilin 17 noyabrında Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə öz işinə başlamışdır. Həmin sessiyada gündəliyə çıxarılan məsələlər və qəbul edilən tarixi qərarlar, ümumilikdə, Azərbaycanın müstəqilliyinə və suverenliyinə hesablanmışdı. Belə ki, sessiyada muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı, gerbi, himni bərpa edilmişdir. Bu qətiyyətli qərarlar o dövrdə hakimiyyətdə olan səriştəsiz rəhbərləri qəzəbləndirsə də, atılan hər bir addım ötən əsrin əvvəlində yarımçıq qalan müstəqillik ideyasının əbədiliyinə ümummilli lider Heydər Əliyevin sədaqəti, vətəndaşlıq borcu idi.

Bütün bunlarla yanaşı, 20 Yanvar faciəsinə, Xocalı soyqırımına siyasi qiymət verilməsi tələbi də ulu öndər Heydər Əliyev tərəfindən səsləndirilmişdir. SSRİ-ni başqa formatda təşkil etmək üçün irəli sürülən və müttəfiq respublikaların suveren hüquqlarını pozan "ittifaq müqaviləsi"nin əsl mahiyyətini uzaqgörənliklə hiss edib "təhlükəli oyunun" ağır itkilərlə nəticələnəcəyini xalqa çatdıran müdrik şəxsiyyət haqlı olaraq bunu xalqı aldatmaq cəhdinin bir təzahürü adlandırmışdır. Ulu öndərimiz dünya azərbaycanlılarının birliyini rəsmiləşdirmək üçün 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan etmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev o dövrdə Naxçıvanda baş verən hadisələr barədə demişdir: ***"Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvana olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi. Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi. O vaxt Naxçıvanda vəziyyət böyük çətinliklər hesabına sabit olaraq qalırdı. O vaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi, heç bir yardım etmirdi, əksinə, Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi, müdrikliyini göstərərək ulu öndərin ətrafında bir yumruq kimi sıx birləşdilər və həm erməni işğalçılarına tutarlı cavab verdilər, onları yerinə oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir".***

Ümummilli lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Azərbaycanın dövlətçilik tarixində, ölkəmizin müstəqilliyinin əldə olunması, qorunub saxlanılması və inkişaf etdirilməsi baxımından çox mühüm bir mərhələ təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən ulu öndər ilk olaraq blokada şəraitində yaşamağa məcbur olmuş Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi sahəsində mühüm addımlar atmışdır. Ümummilli liderimizin Ali Məclisin Sədri seçildikdən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Ali Məclis "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında" Qərar qəbul etmişdir. Bu qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıcı idi. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanması təmin olunmuş, əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradılmış, Naxçıvanın müdafiə potensialı gücləndirilmiş, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası qoyulmuşdur.

Ümumiyyətlə, həmin dövrdə dahi şəxsiyyətin bütün sahələrdə həyata keçirdiyi islahatlar mühüm əhəmiyyəti ilə seçilir. 1992-ci ildə İran İslam Respublikası və Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq protokollarının imzalanması muxtar respublikanın bu ölkələrlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlərinin yaranmasına imkan yaratmış, mehriban qonşuluq əlaqələrinin inkişafına təkan vermişdir. Bundan başqa, Araz çayı üzərində "Ümid" körpüsü tikilib istifadəyə verilmiş, Sədərək və Culfa gömrük-keçid məntəqələri fəaliyyətə başlamışdır. 1993-cü il fevralın 5-də Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının Naxçıvanda konsulluqları fəaliyyətə başlamışdır.

Həmin dövrdə muxtar respublikanın ağır blokada vəziyyətinə salınması Azərbaycanın digər əraziləri ilə bütün nəqliyyat əlaqələrinin tənəzzülünə gətirib çıxarmışdı. Əlbəttə, belə bir vəziyyət muxtar respublikada digər sahələrlə yanaşı, iqtisadi sferada da mühüm islahatların aparılmasını zəruri edirdi. Kənd təsərrüfatının dirçəldilməsi sahəsində mühüm addımlar atılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, kənd təsərrüfatı və iqtisadiyyatın inkişafı təmin edilmiş, əhalinin həyat səviyyəsi yüksəldilmişdir. Torpaq islahatlarına ilk dəfə Naxçıvanda başlanması, bütövlükdə, ölkəmizdə kənd təsərrüfatının gələcək inkişafını şərtləndirən əsas amillərdən olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov o dövrdə Naxçıvanda iqtisadiyyatın inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edərkən demişdir: ***"Bu dövrdə müstəqilliyin bərpası istiqamətində görülən tədbirlər təkcə siyasi müstəvidə getmirdi. Yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılan iqtisadi model də formalaşdırılmış, aqrar islahatların həyata keçirilməsi barədə tarixi qərarlar qəbul edilmiş, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülmüşdü... Bu dövrün Naxçıvanı yenidən 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq xəttinə, inkişafın Heydər Əliyev yoluna qayıdan ilk region olmaqla Azərbaycanda böyük nümunə gücünə malik idi".***

Tarixi üç il ərzində Naxçıvanda atılan addımlar milli dövlətçiliyimizin inkişafı baxımından çox böyük əhəmiyyət daşıyır. 1992-ci il noyabrın 21-də ulu öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsi, ölkə ziyalılarının dahi şəxsiyyətə ünvanladığı çoxsaylı teleqram, məktub və çağırışlar ictimai və siyasi sabitliyin gündən-günə ağırlaşdığı Azərbaycanın gələcək xilaskarının yalnız və yalnız Heydər Əliyev olduğunu təsdiq edirdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ulu öndərin Bakıya dönüşü milli-mənəvi dəyərlərimizə, varlığımıza, tarixi yaddaşımıza QAYIDIŞ günü oldu. Dahi rəhbər məhz bu qayıdışla müasir Azərbaycan dövlətinin qurucusu, yaradıcısı, suverenliyimizin etibarlı qarantı, xilaskarı oldu.

*Azərbaycan tarixinin mühüm əhəmiyyətə malik 1969-1985-ci illərdəki təkamülü, 1990-1993-cü illərdə qədim Naxçıvanın təhlükəsizliyinin təmin edilməsi, burada dövlət müstəqilliyinin əsasının qoyulması, 1993-2003-cü illərdə ölkəmizin müstəqilliyinin möhkəmlənməsi naminə göstərilən siyasi iradə və bacarıq, dövlətçilik təcrübəsi, zəngin irsə malik siyasi məktəb ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz möhkəm, etibarlı təməl yaratmışdır. Müstəqil Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası indi bu təməl üzərində gələcəyə doğru inamla addımlayır.*

**"Şərq qapısı"**

**Milli mətbuat – 140**

# Azərbaycan milli mətbuatı zəngin ənənələrə malikdir

*Bu gün Azərbaycan milli mətbuatının yaranmasının 140 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2015-ci il iyunun 2-də "Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Ölkə başçısının Sərəncamında deyilir:* ***"1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi kimi öz adını tarixə yazmışdır. Qəzet dövrün qabaqcıl ideyalarını təbliğ etmiş, insanları dini mövhumata və cəhalətə qarşı mübarizəyə çağırmış, ictimai-siyasi və bədii düşüncənin inkişafına güclü təsir göstərmişdir. "Əkinçi"nin bəyan etdiyi prinsipləri rəhbər tutan və onun ənənələrini davam etdirən Azərbaycan mətbuatı sonrakı illərdə dövrün mütərəqqi fikirlərini əks etdirmiş, cəmiyyəti düşündürən məsələləri ictimai müzakirəyə çıxarmış, milli-mənəvi dəyərlərin təbliğində, insanların maariflənməsi və milli şüurun formalaşmasında, xalqımızın müstəqillik arzularının gerçəkləşməsində mühüm rol oynamışdır".***



Azərbaycanın maarifpərvər ziyalısı Həsən bəy Zərdabinin təşəbbüsü ilə çap olunan ilk Azərbaycan dilli mətbuat orqanı "Əkinçi"nin məqsədi maarifçilik hərəkatına təkan verərək milli şüuru oyatmaqdan ibarət idi. "Əkinçi"nin dərc olunmasında dövrün tərəqqipərvər ziyalıları – Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Mirzə Fətəli Axundzadə yaxından iştirak etmişlər. Qəzet maarifçi yazılarla çıxış edərək dövrün bütün çatışmazlıqlarını ifşa edir, "ifrat adətlərə görə pıçıltını eşitməyən yuxulu insanları qamçı ilə oyatmağa" cəhd edir, mədəni geriliyi, avamlığı tənqid atəşinə tuturdu. Millət yolunda xidməti özü üçün amala çevirən qəzet bütün var güvəsi ilə xalqın maariflənməsi uğrunda mücadilə aparırdı. "Əkinçi"də qəzet əməkdaşlarının və qəzetin vəzifəsi dəqiq müəyyənləşdirilmiş, qəzetin xalqın dərdi-sərinin, problemlərinin güzgüsünə çevrilməsi zərurəti mühüm vəzifə kimi qarşıya qoyulmuşdur: *"Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun. Yəni o vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə onların hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görər kimi görsün".*

2 il fəaliyyət göstərən və 56 nömrəsi işıq üzü görən "Əkinçi"nin Azərbaycan ictimai-siyasi fikir tarixində, elmin, mədəniyyətin inkişafında böyük rolu olmuşdur. Ancaq sovet hakimiyyəti illərində dövlətin ideoloji tələbləri söz azadlığına, mətbuatın demokratik prinsiplərlə inkişafına imkan vermirdi. Bütün bu maneələri 1969-cu ildə hakimiyyətə gələn dahi rəhbər, ulu öndər Heydər Əliyev aradan qaldırmış, həyatımızın digər sahələri ilə yanaşı, mətbuatımız da hərtərəfli inkişaf yoluna qədəm qoymuş, özünün qaygıkeş hamisini tapmış, müxtəlif informasiyaların operativ şəkildə yayılmasında, ölkə vətəndaşlarının maarifləndirilməsində ideoloji vasitəyə çevrilmişdir.

Demokratik cəmiyyətin ayrılmaz tərkib hissəsi olan, mütərəqqi ideyaların carçısına çevrilən, xalqın ülvi arzularının reallaşmasına öz töhfəsini verən söz tribunamız müstəqillik illərində yenə də məhz dahi şəxsiyyət Heydər Əliyev sayəsində özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ümummilli liderimiz hər zaman kütləvi informasiya vasitələrinin cəmiyyət həyatındakı roluna yüksək qiymət vermiş, ölkəmizdə jurnalistlərin peşə fəaliyyətləri üçün geniş imkanlar yaratmışdır. Qısa zamanda kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, mətbuatın maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirilmiş, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulmuşdur.

Ulu öndərin 1998-ci il avqustun 16-da imzaladığı "Söz, fikir, məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı ilə Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarənin fəaliyyəti dayandırılmış, senzura aradan qaldırılmışdır. Bu, Sovetlər Birliyinə daxil olan respublikalar içərisində ilk addım idi. Həmçinin bu fərmanla Azərbaycanın bütün mətbuat və informasiya orqanları əlavə dəyər vergisindən azad edilmişdir. Ulu öndərin bu istiqamətdə gördüyü ən mühüm işlərdən biri də 2000-ci il martın 27-də imzaladığı "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" Fərmandır. Bu tarixi sənəd ölkəmizdə mətbuata dövlət qayğısının daha bir təzahürü kimi yüksək dəyərə malikdir. ***"Mən jurnalistlərə, mətbuat orqanlarına böyük hörmətlə yanaşıram. Sizin əməyinizi çox ağır, mürəkkəb əmək hesab edirəm. Özünü bu peşəyə həsr edənlər əsl hünər göstərirlər",*** – deyən ümummilli liderimizin adıçəkilən fərmanı Azərbaycanın ictimai fikir tarixində mühüm rolu olan mətbuatın daha sürətli inkişafına şərait yaratmış,

*Ardı 4-cü səhifədə*

respublika mətbuatında öz dəst-xətti olan qələm sahibləri yüksək dövlət mükafatlarına layiq görülmüşlər.

Ulu öndər deyirdi: ***“Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfələrini vermişdir”.*** Təbii ki, bu töhfələr də mətbuatımıza ulu öndərin böyük qayğısından qaynaqlanırdı. Belə qayğının davamı kimi ümummilli liderin 2001-ci il dekabrın 27-də imzaladığı “Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında” Sərəncamı da mühüm əhəmiyyət daşıyır.

Ümummilli liderimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısını öz fəaliyyətinin əsas istiqamətlərindən biri kimi qəbul etmişdir. Ölkəmizdə söz, fikir və məlumat azadlığının təmin olunması, tam sərbəst şəraitdə yüzlərlə qəzet və jurnalın nəşri mətbu fəaliyyətin maneəsiz həyata keçirilməsinə yaradılmış şəraitin, mətbuata dövlət qayğısının bariz nümunəsidir.

2000-ci il martın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” Sərəncama əsasən muxtar respublikanın bütün rayonlarında fəaliyyət göstərən mətbuat orqanları normal iş şəraiti ilə təmin edilmiş, onların maddi-texniki bazaları gücləndirilmişdir. Muxtar respublikada Televiziya və Radio Şurasının, Mətbuat Şurasının yaradılması və fəaliyyətinin genişləndirilməsi də bu sahədə işin keyfiyyətinə müsbət təsir göstərmişdir.

Ümumiyyətlə, son 20 ildə bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş muxtar respublikanın kütləvi informasiya orqanlarını da əhatə etmişdir. Bu gün muxtar respublikanın hər bir şəhər və rayonunun özünün mətbu orqanı vardır və onların dövriyyəliyi təmin edilmişdir. Artıq 10 ildən çoxdur ki, muxtar respublikanın mərkəzi mətbu orqanı olan “Şərq qapısı” qəzeti həftədə 5 dəfə nəşr olunur. 2010-cu il iyulun 22-də “Şərq qapısı” qəzeti redaksiyasının, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin yeni binasının və mətbəənin açılışı olmuş, müasir iş şəraiti yaradılmışdır. Mətbəədə quraşdırılan müasir çap avadanlıqlarının hesabına artıq muxtar respublikada işıq üzü görən bütün qəzet və jurnallar rəngli, yüksək poliqrafik keyfiyyətlə nəşr olunurlar.

Jurnalist kadrların hazırlanması, gənc jurnalistlərin işə cəlb olunması da mətbuatın inkişafında mühüm amildir. Naxçıvan Dövlət Universitetində Jurnalistika və dünya ədəbiyyatı kafedrası fəaliyyət göstərir, hər il onlarla gənc jurnalist yetişir. Həmçinin buradakı “Universitet televiziyası” və “Nuhçıxan” radiosunda gənc jurnalistlər nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə yiyələnir, ixtisaslı kadr kimi Naxçıvan mətbuatına öz töhfələrini verirlər. Bu gün artıq muxtar respublikanın kütləvi informasiya vasitələrində çalışanların böyük əksəriyyətinin gənclərdən ibarət olması bunu bir daha təsdiq edir.

*Göstərilən qayğının müqabilində yeni dövrün quruculuq və inkişaf tarixini yazmaq, milli maraqları daim uca tutmaq, cəmiyyət həyatına dərindən nüfuz etmək, qədim tariximizi, milli dəyərlərimizi yaşatmaq, maarifçilik işi aparmaq bu gün jurnalistlərin qarşısında duran əsas vəzifələrdir. Unutmamalıyıq ki, milli demokratik mətbuatın “Əkinçi” qəzeti tərəfindən bəyan edilmiş prinsipləri müasir dövrdə də öz aktuallığını saxlayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Mətbuat dövrün güzgüsüdür. Gələcək nəsillər tariximizi öyrənmək üçün indiki qəzetlərə, televiziya verilişlərinə müraciət edəcəklər. Odur ki, tariximiz öz əksini düzgün tapmalıdır. Hər bir kütləvi informasiya vasitəsi işçisi bilməlidir ki, o, bu günün gələcək nəsillərə daşıyıcısıdır. Ona görə də hər günün tarixi yazılmalı, gedən proseslər düzgün işıqlandırılmalıdır”.***

**“Şərq qapısı”**

*Naxçıvan Dövlət Universitetində “Azərbaycan milli mətbuatı – 140” mövzusunda elmi konfrans keçirilib.*

## Ali təhsil ocağında milli mətbuatın 140 illiyi ilə bağlı konfrans keçirilib



Konfransı giriş sözü ilə rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında” 2 iyun 2015-ci il tarixli Sərəncamına, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 10 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən, Milli Mətbuat Günü muxtar respublikada da silsilə tədbirlərlə qeyd olunur. Rektor müstəqil, demokratik mətbuatın formalaşmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən, milli jurnalistikanın inkişaf strategiyasının ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, Naxçıvan Dövlət Universitetində ali təhsilli jurnalist kadrlarının hazırlanmasına və onların iş yerləri ilə təmin olunmasına göstərilən dövlət qayğısından bəhs edib. Bildirilib ki, Naxçıvan Dövlət Universitetində Media Mərkəzi şəklində cəmləşən “Qeyrət” nəşriyyatı, Mətbuat şöbəsi, “Universitet” televiziyası və “Nuhçıxan” radiosu fəaliyyət göstərir. Saleh Məhərrəmov universitetin jurnalist əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edib.

Konfransda universitetin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid “Naxçıvanda mətbuatın yaranması və inkişafı”, Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərov “Azərbaycan mətbuatı tarixində “Molla Nəsrəddin” mərhələsi”, universitetin “Qeyrət” nəşriyyatının direktoru, tarix üzrə fəlsəfə doktoru Vaqif Məmmədov “Əkinçi” qəzetində mətbuat və jurnalistika məsələləri”, Jurnalistika və dünya ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyeva “Milli mətbuatın inkişaf tarixi”, “Universitet dünyası” muzeyinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Abbas Hacıyev “Müstəqillik illərində Naxçıvan mətbuatı”, universitetin Mətbuat şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultan “Ümummilli lider Heydər Əliyevin milli jurnalistikanın inkişafındakı xidmətləri” mövzularında məruzələr ediblər.

Məruzələrdə milli mətbuatın Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatında, milli şüurun formalaşmasında və bəşəri dəyərlərin təbliğində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasındakı özünəməxsus rolundan danışılıb. Qeyd olunub ki, milli mətbuat ictimai mühitin, milli ideologiyanın, müstəqillik uğrunda mübarizənin formalaşmasına xidmət edib. Azərbaycanda azad, demokratik mətbuatın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimizin 6 avqust 1998-ci il tarixdə “Azərbaycanda söz, fikir, məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” imzaladığı Fərman, 7 dekabr 1999-cu ildə qəbul olunmuş “Kütləvi informasiya vasitələri haqqında” Qanun və digər fərman və sərəncamlar milli jurnalistikanın inkişafına böyük təkan verib. Ümummilli liderin kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, ölkənin informasiya tələbatının ödənilməsi, jurnalist kadrların yetişdirilməsi istiqamətində apardığı məqsədyönlü siyasət bu gün də uğurla davam etdirilir. Milli mətbuatın yaranmasının 130, 135 və 140 illik yubileylərinin dövlət səviyyəsində qeyd olunması, jurnalistlərin müxtəlif orden və medallarla, fəxri adlarla təltif olunması, müxtəlif mətbuat orqanlarına və informasiya agentliklərinə maliyyə dəstəyi göstərilməsi, Naxçıvan Muxtar Respublikasının timsalında regional jurnalistikanın nümunəvi inkişafı buna parlaq sübutdur.

**Mehriban SULTAN**

*Gəncliyimiz – gələcəyimiz*

## Çəkilən zəhmət hədər getmir

*Haqqında söhbət açacağımız Əli Allahverdiyev qəbul imtahanında 700 bal toplayıb*

Məlum olduğu kimi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olunmaq istəyən cari ilin məzunları üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirdi. İmtahanda muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəbləri məzunlarının yüksək nəticələr əldə etməsi hamını sevindirir. Bu sevincin ən böyüyünü isə Şərur rayonunun Zeyvə kənd tam orta məktəbinin kollektivi yaşayır. Çünki məktəbin məzunu, 1998-ci il təvəllüdlü Əli Allahverdiyev I qrup üzrə 700 bal toplayıb. Bu gün kütləvi informasiya vasitələrinin əksəriyyəti Əlinin qazandığı bu uğurdan yazır. Düzdür, qəbul imtahanında 9 nəfər 700 bal toplayıb. Ancaq Əlinin digərlərindən fərqi ondadır ki, o nə fərdi hazırlıq keçib, nə də kurslarda hazırlaşıb. 11 il öz üzərində çalışan Əli sınaqlarda da yüksək bal toplayıb. Belə ki, 10-cu sinifdə sınaq imtahanından 700 bal, 11-ci sinifdə isə 690 bal toplayıb. Əli eyni zamanda bir sıra beynəlxalq fənn olimpiadalarında da uğurlu çıxış edib. O, respublika üzrə riyaziyyat olimpiadasında gümüş medal, Nigeriyada fənn olimpiadasında qızıl medal, Türkiyədə riyaziyyat üzrə olimpiadada isə 2 qızıl, 2 bürünc medal qazanıb.



Biz də Əlini oxucularımızla yaxından tanış etmək üçün redaksiyamıza dəvət edib həmsöhbət olduq.

Onunla söhbət edərkən dövlətimizin gənclərə göstərdiyi qayğı, onların hərtərəfli yetişməsi üçün yaradılan münbit şərait haqqında düşünürdüm və bütün bunların doğrudan da hədər getmədiyinin bir daha şahidi oldum. Əli zəngin biliyə, yüksək intellektə sahib olmaqla yanaşı, həm də müsbət mənəvi keyfiyyətlərə malik bir gənc təsiri bağışladı. Axı müasir dövrün gənci, hər şeydən əvvəl, vətənpərvər, milli mentalitetimizə sadiq olmalı, əxlaqı, davranışı ilə seçilməli, istər təhsildə, istərsə də ictimaiyyət arasında dərin biliyi ilə nümunə olmalıdır. Bu günün tələbəsi sabahın qurucusu olmaqla məsuliyyətini dərk edib müstəqil Azərbaycan Respublikasının çiçəklənməsi üçün üzərinə düşən vəzifəni yerinə yetirməlidir. Əli ilə qısa söhbət zamanı his etmək çətin deyildi ki, bütün bu vacib keyfiyyətlər bu gəncdə cəmləşib. O deyir:

– Qarşıma qoyduğum məqsədə çatmağımda başlıca amil bu gün muxtar respublikada təhsilin inkişafına yaradılan şəraitdir. Bitirdiyim Zeyvə kənd tam orta məktəbi müasir bina ilə təmin olunub, məktəb hərtərəfli maddi-texniki bazaya malikdir. Ümumiyyətlə isə bu gün muxtar respublikada yeni inşa olunmuş məktəb binalarının hamısı ən yüksək standartlara cavab verir. Kim bu şəraitdən səmərəli istifadə edirsə, çəkdiyi zəhmət hədər getmir. Mən də vaxtımın çoxunu məktəbdə keçirirdim. Biliklərimi də mütəmadi olaraq keçirilən sınaqlarda möhkəmləndirirdim. Əlavə kursda iştirak etməyə ehtiyac duymamışam. Sevinirəm ki, məktəb kollektivinin və ailəmin məndən gözlədiklərinə nail oldum.

Əli sonda arzularından da danışdı. 700 bal toplamaq onu arxayın salmayıb. Hələ hədəfləri çoxdur. Ən böyük arzusu Bakı Ali Neft Məktəbini bitirmək və Böyük Britaniyanın Oksford Universitetində təhsilini davam etdirməkdir. Fizika-riyaziyyat üzrə alim kimi yetişmək və bir alim kimi gərəkli kəşflər etməyi qarşısına məqsəd qoyub. Biz də qazandığı uğura görə onu təbrik edir, uğurlar arzulayır və inanırıq ki, Əli bütün arzularına çatacaq.

**✍ Sara ƏZİMOVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 21 iyul 2015-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | | | Biçilən taxıl sahəsi (hektar) | | | Məhsul istehsalı (ton) | | | Məhsuldarlıq (sentner) | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | Ondan | | Cəmi | Ondan | | Cəmi | Ondan | | Cəmi | Ondan | |
| | | | Buğda | Arpa | | Buğda | Arpa | | Buğda | Arpa | | Buğda | Arpa |
| 1. | Şərur | 9187 | 7315 | 1872 | 8822 | 6950 | 1872 | 27487 | 21684 | 5803 | 31,2 | 31,2 | 31,0 |
| 2. | Babək | 10476 | 7869 | 2607 | 9567 | 6960 | 2607 | 29397 | 21785 | 7612 | 30,7 | 31,3 | 29,2 |
| 3. | Culfa | 4982 | 3957 | 1025 | 4942 | 3917 | 1025 | 13114 | 10654 | 2460 | 26,5 | 27,2 | 24,0 |
| 4. | Ordubad | 2150 | 1308 | 842 | 2150 | 1308 | 842 | 5798 | 3584 | 2214 | 27,0 | 27,4 | 26,3 |
| 5. | Şahbuz | 1344 | 1022 | 322 | 470 | 260 | 210 | 1354 | 774 | 580 | 28,8 | 29,8 | 27,6 |
| 6. | Kəngərli | 4735 | 3104 | 1631 | 4421 | 2790 | 1631 | 11853 | 7421 | 4432 | 26,8 | 26,6 | 27,2 |
| 7. | Sədərək | 2132 | 1147 | 985 | 2097 | 1115 | 982 | 6400 | 3110 | 3290 | 30,5 | 27,9 | 33,5 |
| 8. | Naxçıvan şəhəri | 1231 | 1024 | 207 | 1231 | 1024 | 207 | 3319 | 2742 | 577 | 27,0 | 26,8 | 27,9 |
| Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | | **36237** | **26746** | **9491** | **33700** | **24324** | **9376** | **98722** | **71754** | **26968** | **29,3** | **29,5** | **28,8** |

## Məhdud fiziki imkanlı şəxslər Ağbulaq İstirahət Mərkəzinə göndərilib

İyun ayında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud 52 məktəbli uşağın valideynlərinin müşayiəti ilə Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunub. Nazirlik tərəfindən fiziki məhdudiyyəti olan istedadlı, o cümlədən idmançı, musiqiçi, rəssam, toxucu, misgər, ümumilikdə, 35 şəxs iyul ayının 20-də Ağbulaq İstirahət Mərkəzinə göndərilib.

Mərkəzdə onların istirahəti üçün yaradılan şərait yüksək səviyyədədir. Altı gün ərzində mərkəzə dincəlməyə gələnlərin asudə vaxtlarının səmərəli təşkilinə nail olmaq üçün proqram tərtib edilib. Proqrama uyğun olaraq, məhdud fiziki imkanlı şəxslərin iştirakı ilə müxtəlif idman yarışları, əyləncəli tədbirlər təşkil olunacaq, onlar Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinə aparılacaq.

**Xəbərlər şöbəsi**

*İtmişdir*

Zülfüqarlı Pərvin Arif oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 557